# İqisadi Zonaların İnkişafı Agentliyi hesabat verib

## 3 il ərzində sənaye zonalarında 12,1 milyard manatlıq məhsul istehsal olunub, onun 3,9 milyard manatlığı ixrac edilib

Son illər Azərbaycanda uğurlu sənayeləşmə siyasəti aparılır. Bu proses iqtisadiyyatın şaxələndirilməsinə xidmət etdiyi üçün sənaye parklarının və məhəllələrinin, eləcə də aqroparkların inkişafı üçün hər cür şərait yaradılıb. Sənaye parklarının və məhəllələrinin idarəedilməsini, aqroparkların isə koordinasiyasını İqisadi Zonaların İnkişafı Agentliyi (İZİA) həyata keçirir.

Məlumat üçün bildirək ki, İZİA 2021-ci ildə Prezident İlham Əliyevin imzaladığı fərmanla "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin əsasında publik şəxs kimi yaradılaraq 7 sənaye parkından 6-nı, 5 sənaye məhəlləsindən 4-nü və 51 aqroparkı idarə edir. İZİA idarəedici təşkilat olaraq investorların fəaliyyətini dəstəkləmək üçün sənaye zonalarında tikintiyə və tikinti obyektinin istismarına icazənin alınması ilə bağlı rezidentlərin adından təmsilçilik funksiyasını yerinə yetirir. Onu da qeyd edək ki, sənaye zonalarını müasir və geniş infrastrukturla təchiz etmək üçün rezidentlərə "birbaşa qoşulma" prinsipi təklif olunur.

Ötən müddətdə agentliyin idarəçiliyindəki sənaye zonalarında investisiya həcminin 750 milyon manat olan 56 sahibkarlıq subyektinə rezidentlik statusu verilib, 17 müəssisə fəaliyyətə başlayıb və 1336 daimi iş yeri yaradılıb. Üç il ərzində sənaye zonalarında 8,45 milyard manatlıq məhsul istehsal edilib ki, onun da 35,7 faizi, yəni 3,02 milyard manatlığı ixrac olunub.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, İZİA-nın idarəçiliyindəki sənaye zonalarında indiyəcən 3,9 milyard manatlığı ixrac edilməklə 12,1 milyard manat dəyərində məhsul istehsal olunub. Təkcə 2023-cü ildə sənaye zonalarının rezidentləri tərəfindən 3,3 milyard manatlıq məhsul satılıb ki, onun da 989 milyon manatlığı xarici bazarlara göndərilib. Keçən il 2022-ci illə müqayisədə satışlar 12,5 faiz artıb. Bu dövrdə sənaye zonalarının ölkə üzrə qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 18, ixracında isə 23,6 faiz olub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 65-dən çox ölkəsinə ixrac edilib. Bu il isə İZİA-nın tabeçiliyindəki zonalarda 10-a yaxın müəssisənin fəaliyyətə başlaması planlaşdırılır. Həmin müəssisələrdə təqribən 1000 daimi iş yeri yaradılacaq.

İşğaldan azad edilmiş ərazilərdə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında sürətli işlər gedir. Bu vaxta kimi Ağdam Sənaye Parkında 20 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Həmin rezidentlər tərəfindən sənaye parkına 190 milyon manatdan çox investisiya yatırılması və bu hesaba parkda 1700-dən çox iş yerinin açılması nəzərdə tutulur. Bu il parkda 5-dən çox müəssisənin (divar kağızlarının, bir neçə növdə ayaqqabıların, dam örtüklərinin, boru və qutu profillərin, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların və s. istehsal müəssisələrinin) fəaliyyətə başlaması planlaşdırılır. Həmin müəssisələrdə istehsal olunacaq məhsullar ilk növbədə daxili tələbatın ödənilməsinə yönəldiləcək, sonrakı mərhələdə isə "Made in Azerbaijan" brendi altında ixrac ediləcək.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına gəlincə, hazırda parkın 10 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 67 milyon manatdan çox investisiyanın yatırılması, orada fəaliyyətə başlayacaq müəssisələrdə 700-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu il sənaye parkında bir neçə müəssisənin (2 min tonluq sement terminalının, minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların, müxtəlif növdə yapışqan lentlərin istehsalı müəssisələri) fəaliyyətə başlaması planlaşdırılır. Xatırladaq ki, bu günədək rezidentlər tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına 10 milyon manata yaxın investisiya yatırılıb.

Ötən il daha bir sənaye parkının Gəncə şəhərində fəaliyyətə başlayacağı haqqında məlumat verilmişdi. Hazırda İqtisadiyyat Nazirliyi tərəfindən həmin sənaye parkının yerləşəcəyi ərazinin, prioritet istiqamətlərinin və s. məsələlərin dəqiqləşdirilməsi istiqamətində işlər görülür. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi metallurgiya klasterinin təşkili, avtomobil sənayesinin daha da inkişafı ilə lokalizasiyanın artırılması, tikinti materialları sənayesi (kərpic, keramika, çınqıl və qum, üzlük daşı və s.), yüngül sənaye (xalça, gön-dəri, toxuculuq və s.), qida sənayesi (meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, quşçuluq, süd və ət məhsulları, qurudulmuş və dondurulmuş meyvə, günəbaxan yağı istehsalı və s.), yeni logistika və ticarət mərkəzləri kimi sahələrin yaradılması nəzərdə tutulur.

Bundan əlavə, hazırda 22 rayon üzrə 66 min hektar ərazidə 24 aqroparkın yaradılması istiqamətində işlər görülür. İndiyədək 58,6 min hektar ərazidə 22 aqropark fəaliyyətə başlayıb, 2 aqroparkda isə tikinti-quraşdırma işləri aparılır. Aqroparklardan 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i isə çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Aqroparkların ümumi layihə dəyəri 1,2 milyard manat təşkil edir. Bununla yanaşı, aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 147 milyon manat dövlət dəstəyi göstərilib. Qeydiyyata alınan aqroparklarda ümumilikdə 5000 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulub. Hazırda burada 2660-dan çox daimi, 4300 nəfər isə mövsümi işlərə cəlb edilib. Gələcəkdə əlavə 2300-dən çox daimi iş yerinin yaradılması gözlənilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.13.